# "İrəvanda qardaşını daşnaklar öldürdü, özü Bakıda Stalin repressiyasına hədəf oldu" - filosofun faciəsi...

**"Mən Qərbi azərbaycanlıyam" rubrikasında İrəvanda doğulan Azərbaycan-sovet filosofu, ictimai xadim, elm təşkilatçısı, fəlsəfə elmləri doktoru, professor, Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü, Stalin mükafatı laureatı Heydər Hüseynovdan danışacağıq. O Heydər Hüseynovdan ki, savadı, fitri istedadı, günəş kimi parlaq zəkası ilə Azərbaycan elmində bir hadisəyə çevrildi.**



Heydər Hüseynovun ölümü də hadisə oldu, elə bir hadisə ki, dünya durduqca insanlar bu haqda yana-yana danışacaqlar. Görkəmli alimin 42 yaşında intihar edib həyatına son qoyması faktı bu gün də ciddi müzakirə olunur, mülahizələr irəli sürülür. Bəziləri hesab edir ki, filosof Hüseynov bu addımı məcburiyyət qarşısında atıb. O zaman Azərbaycan SSR-ə rəhbərlik edən Mircəfər Bağırovun görkəmli filosofa təzyiq göstərdiyi, onu nahaqdan incitdiyi barədə məlumatlar var. Hətta belə iddialar da var ki, onu respublika rəhbəri bu addıma təhrik edib. Bəziləri isə hesab edir ki, H.Hüseynovun adı da Stalin repressiyasının, qanlı rejimin qurbanı kimi qeyd edilməlidir.

### Mircəfər Bağırovun dözümsüzlüyü, qanlı faciəyə gedən yol...

H.Hüseynov barədə hazırlanan "Vikipediya"da onun təqibi və ölümü barədə qeyd edilir ki, Heydər Hüseynovun elmi fəaliyyətinin mükafatlandırılmasına baxmayaraq, ona qarşı Respublika rəhbərliyində dözümsüzlük başlayır. Məlumatda bildirilir: "1950-ci ilin mayında Kommunist Partiyasının MK-nın büro iclasında ciddi tənqid edilir. Onun 19-cu əsrdə Qafqaz fəlsəfi fikrinin tədqiqi müridizmin təbliği, sufizmin təqdiri kimi qəbul edilir. Kitabın müqəddiməsində " İmam Şamil mütərəqqi və demokratik bir lider, həmçinin azadlıq fenomeni kimi göstərilir ki, bu da marksist ideyalarına ziddir (...), Şamil millətçi hərəkatın nümayəndəsi idi və türk sultanı ilə ingilis kapitalizm maraqlarına xidmət edən şəxs olub"...Azərbaycan KP MK SSRİ Nazirlər Soveti qarşısında onun aldığı Stalin mükafatlarından məhrum edilməsi vəsadətini qaldırır və vəsadət təmin edilir.

Hüseynov Kommunist Partiyasından çıxarılır və Elmlər Akademiyasındakı vəzifələrindən azad edilir. Dövlət orqanları və bəzi həmkarları tərəfindən əsassız təqiblərə məruz qalır. Təzyiqlərə dözməyən və həbs ediləcəyini təxmin edən filosof 15 avqust 1950-ci ildə damarlarını kəsməklə özünə qəsd edir".

Yenə həmin mətndə fəlsəfə elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Zakir Məmmədovun Heydər Hüseynov haqqında məqaləsindən də sitat yer alıb.

AMEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru, professor Zakir Məmmədov "Fəlsəfi fikrimiz ona laqeyd qalmaq olmaz" məqaləsində Heydər Hüseynovdan bəhs edərkən yazıb: "Akademik H.N.Hüseynov 40-cı illərdə Bəhmənyarın kiçik həcmli iki fəlsəfi traktını aşkara çıxarıb tədqiqat obyektinə çevirməklə sırf elmi-fəlsəfi irsimizin varlığını elan etdi. Görkəmli tədqiqatçının milli ruhda Azərbaycan fəlsəfəsi tarixinə dair yazdığı kitab elmi ictimaiyyət tərəfindən rəğbətlə qarşılandı, Stalin mükafatına layiq görüldü. Lakin alimin öz xalqının tarixən yüksək elmi-fəlsəfi təfəkkürə malik olduğunu aşkar söyləməsi imperiya ağalarının zəhmindən qorxan kölələrə xoş gəlmədi. XII əsrdə elminə görə hakim tərəfindən təqdir edilmiş, amal və qayəsinə görə isə öldürülmüş Şihabəddin Yəhya Sührəvərdinin (1154-1191) taleyi XX əsrdə təkrar olundu".

### Erməni daşnakları qardaşını öldürdü... ilk dəfə 12 yaşında şagird oldu...

Heydər Hüseynov barəsində ən çox danışılan, ən çox yazılan elm xadimidir. 42 illik ömrünə bir neçə ömrə bəs edəcək əməllər yazıldı. O, xalqımıza öz tarixini, milli kimliyini tanıtmaq üçün öz canını belə qurban verməkdən çəkinmədi. Xalqın tarixi taleyini araşdırmaq, milli ruhu ehtiva edən əsərlər yazmaq ona baha başa gəldi.

İrəvanlı Heydər Hüseynov uşaqlıqdan faciələrlə üzləşib, ağrı-acı yaşayıb.

Alimin dərc edilən bioqrafiyasına diqqət yetirək: Heydər Hüseynov 1908-ci il aprelin 3-də İrəvanda tacir Hacı Nəcəf Kərbəlayi Hüseyn oğlunun və Məşədi Gülsümün ailəsində anadan olub. Ailədəki altı uşağın kiçiyi olan Heydər 1 yaşında ikən atasını itirib. Qeyd edilir ki, böyük qardaşı Yusif 1918-ci ildə erməni daşnak dəstələri tərəfindən öldürüldükdən sonra ailələri əvvəl Batuma, sonra Stavropola, axırda Bakıya köçürlər. Böyük qardaşı və anasının himayəsi altında böyüyür.

Heydər Hüseynov yalnız on iki yaşında Bakının 18 saylı məktəbinin şagirdi ola bilib. O, 1927-1931 illərdə Lenin adına Pedaqoji Universitetin həm şərqşünaslıq, həm də pedaqoji fakültələrinin tələbəsi olmuş, ərəb və fars dillərinə mükəmməl yiyələnir. Bildirilir ki, əmək fəaliyyətinə 1924-cü ildən başlamış, pedaqoji texnikumun kitabxanasında işləməklə başlayır. 1931-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun ictimai elmlər fakültəsinin qiyabi şöbəsini bitirir. 1931-1932-ci illərdə Azərbaycan Elmi -Tədqiqat İnstitutunun aspirantı, 1936-1940-cı illərdə SSRİ Elmlər Akademiyası Azərbaycan filialı Ensiklopediya və Lüğətlər İnstitutunun direktoru, 1939-1945-ci illərdə SSRİ Elmlər Akademiyası Azərbaycan Filialı sədrinin müavini, 1945-1950-ci illərdə Azərbaycan SSRİ Elmlər Akademiyasının vitse-prezidenti, eyni zamanda akademiyanın ictimai elmlər bölməsinin sədri olur. 1943-1945-ci illərdə Azərbaycan Dövlət Universitetinin əvvəl marksizm-leninizmin əsasları, sonra fəlsəfə kafedrasının müdiri, 1945-1950-ci illərdə Azərbaycan KP MK yanında Partiya Tarixi İnstitutunun direktoru olur.

Böyük alim haqda bu fikirləri onun haqqında tərtib edilən "Vikipediya"dan götürmüşük.

### Azərbaycanda humanitar sahənin ağsaqqallarından biri, "gənc alim"...

Professor Vilayət Quliyev "Alimin faciəsi: Akademik Heydər Hüseynov" məqaləsində yazır: "1950-ci il avqustun 15-də görkəmli Azərbaycan alimi, Azərbaycan EA-nın ilk 15 qurucu üzvündən biri, ictimai elmlər üzrə vitse-prezident Heydər Nəcəf oğlu Hüseynov (1908-1950) həyatına intiharla son qoymuşdu.

...Görkəmli alimin rəhbərliyi və redaktəsi altında 2 cildlik "Müxtəsər Azərbaycan tarixi" (1943-1944), 4 cildlik "Rusca-azərbaycanca lüğət", general Ə.Şıxlinskinin "Xatirələri" (1943) kimi fundamental nəşrlər hazırlanmışdı. Azərbaycan dilində fəlsəfi terminlərin yaradılmasında və marksist filosof kadrların yetişdirilməsində də Heydər Hüseynovun xidmətləri olmuşdu. O, milli ictimai-siyasi və ədəbi-fəlsəfi fikrin Bəhmənyar, Nizami, Füzuli, A.Bakıxanov, Mirzə Kazımbəy, M.F.Axundzadə, H.Zərdabi kimi görkəmli nümayəndələri haqda çoxu ilk addım kimi dəyərləndirilə biləcək tədqiqatların müəllifidir.

Elmi fəaliyyətinin diqqətəlayiq nümunəsi - "XIX əsrdə Azərbaycanda ictimai-fəlsəfi fikir tarixindən" monoqrafiyası çapdan çıxanda H.Hüseynovun 41 yaşı vardı. Cəmiyyətimizdəki yaş kultu baxımından müəllifi hətta "gənc alim" də adlandırmaq olardı. Lakin bu "gənc alim" həmin dövrdə Azərbaycanda humanitar sahənin ağsaqqallarından sayılırdı. Amma elmi fikrə böyük töhfələr verə biləcək akademikin Heydər Hüseynov yaradıcılığının ən verimli çağında ehtiyatsızlıq və təcrübəsizlikdən doğan adi təsadüfün qurbanı oldu. "Respublikanın sahibi"nin - Mir Cəfər Bağırovun və Moskva ideoloqlarının tarixi şəxsiyyətlərə münasibətdə əsaslandıqları şablondan kənara çıxması Heydər Hüseynovun yalnız Azərbaycan deyil, az qala bütün SSRİ miqyasında növbəti xalq düşməni kimi ittiham edilməsinə gətirib çıxardı. Səbəb müəllifin yuxarıda adı çəkilən "XIX əsrdə Azərbaycanda ictimai-siyasi fikir tarixindən" monoqrafiyasında Mirzə Kazımbəyin "Müridizm və Şamil" əsərindən, eləcə də dağlı qəhrəmanı Şeyx Şamilin şəxsiyyət, mübarizə və ideallarından bəhs etməsi, onu "qəhrəman və qəhrəmanların yaradıcısı" adlandırması idi. Bədbəxtlikdən bu, elə vaxt idi ki, müridizm mürtəce hərəkat, Şeyx Şamil isə "ingilis və türk casusu" kimi qələmə verilirdi".

### Layiq olduğu Stalin mükafatı, rəhbərin kükrəyən qəzəbi...

Daha sonra V.Quliyev qeyd edir ki, 1940-cı illərin sonu Heydər Hüseynovun triumf dövrü idi. O, 4 cildlik "Rusca-Azərbaycanca" lüğətə görə 1948-ci ildə 2-ci dərəcəli Stalin mükafatına layiq görülmüşdü. "Bir il sonra isə 733 səhifəlik "XIX əsrdə Azərbaycanda ictimai-siyasi fikri tarixindən" monumental monoqrafiyası çap olunmuşdu.

Bəlkə də kitab ümumittifaq miqyasında diqqəti çəkməsəydi, görkəmli alim taleyin gözlənilməz zərbələrindən kənarda qala bilərdi. Amma belə olmadı.

1947-ci ildə müasirlərinin "ədəbiyyat naziri" adlandırdıqları SSRİ Yazıçılar İttifaqının birinci katibi, Stalin Mükafatları Komitəsinin sədri A.Fadeyev Nizami Gəncəvinin mühəribə səbəbindən təxirə salınmış 800 illik yubileyində iştirak məqsədi ilə Bakıya gəlmişdi. Burada o, dostu Səməd Vurğun vasitəsi ilə H.Hüseynovla da tanış olmuşdu. Ciddi və işgüzar alim A.Fadeyevə xoş təsir bağışlamışdı. Tanışlıq tədricən səmimi münasibətlərə çevrilmişdi. Başıbəlalı kitabı çapdan çıxanda H.Hüseynov onun ilk nüsxələrindən birini ithaf sözləri ilə Moskvaya, A.Fadeyevə göndərmişdi. Fadeyev əsərlə tanışlıqdan sonra onu ictimai elmlər sahəsində 1950-ci il Stalin mükafatına (III dərəcə) təqdim etmişdi. Müvəffəqiyyətdən başı gicəllənən müəllif "respublikanın xozeyinini" məsələdən xəbərdar eləməyi yaddan çıxarmışdı".

Heydər Hüseynovdan Stalin mükafatı necə geri alınıb?

Müəllif yazır ki, M.C.Bağırov hadisədən yalnız yeni Stalin mükafatları laureatlarının adları "Pravda" qəzetində çap olunanda xəbər tutmuşdu. Başının üstündən iş görüldüyünə, həm də bunu inanıb irəli çəkdiyi şəxsin etdiyinə görə onun hirsindən necə zəncir çeynədiyini təsəvvür etmək çətin deyil: "O dövrdə EA-da, H.Hüseynovun rəhbərlik etdiyi İctimai elmlər bölməsinin elmi katibi vəzifəsində çalışmış şair-tərcüməçi İmran Seyidov mənə danışmışdı ki, "Pravda"da Stalin Mükafatları Komitəsinin qərarı və yeni laureatların adları çap olunduğu gün səhər tezdən M.C.Bağırov akademiki Mərkəzi Komitəyə çağırtdırmış və istənilən adamı vahiməyə salan isterik monoloqdan sonra mükafata layiq görülən monoqrafiyanı sözün həqiqi mənasında onun başına çırpmışdı. Qalın və parıltılı kağızda çap olunmuş foliant isə yetərincə ağır idi...

İmran Seyidovun dediyinə görə, həmin gün "xozeyinin" yanından qayıdan Heydər Hüseynov böyük sarsıntı içində olmuş, kabinetinə çəkilib hönkür-hönkür ağlamışdı. Ona su gətirən İ.Seyidova hıçqırıqlar içində "İmran, predstavləəğ, on dvajdı udaril mene kniqoy po qolove" -demişdi.

Tək qalanda isə damarını kəsib intihar etmək istəmişdi. Amma birinci dəfə onu qurtarmaq mümkün olmuşdu.

"Həddini aşmış" alimi cəzalandırmaq baxımından çıxılmazlıqdan əl atılmış özünəqəsd də "xozeyinə" az görünmüşdü. M.C.Bağırov dostluq əlaqələri saxladığı Lavrenti Beriyanı işə qatmışdı. Hər yerə əli çatan Beriyanın müdaxiləsi nəticəsində məsələ böyüyüb Kreml səviyyəsində müzakirəyə çıxarılmış və Stalin Mükafatları Komitəsinin tarixində sonralar bir də təkrarlanmayan (və təəssüf ki, yeganə presedent də bizimlə bağlı olan) hadisə baş vermişdi: SSRİ Nazirlər Sovetinin qərarı ilə mükafat heç bir cinayət törətməmiş sahibindən geri alınmışdı..."

Professor V.Quliyevin məqaləsində yer alan bu faktlar H.Hüseynovun faciəli sonu barədə bizə informasiya verir. Öz savadı, biliyi, düşüncəsi və fitri istedadı ilə zirvələrə yüksələn irəvanlı H.Hüseynov xalqımızın elm tarixində əbədi olaraq diridir...

***İradə SARIYEVA***